Bakı Təhsil və İnformasiya Mərkəzi
Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzi (ABŞ, Vaşinqton)
Noyabr 2012

# ƏZİZ GƏNCLƏR!

İqtisadi inkişafın mühüm amilləri barədə daha çox bilmək istəyirsinizmi? Cavabınızın "hə" olduğu halda bizim seminarlara yazılın. Bu seminarlar Sizə aşağıdakılara nail olmağa imkan verəcək:

1) Müxtəlif ölkələrdə iqtisadi islahatların aparılması təcrübəsi (postsovet məkanı ölkələri və xüsusilə, Azərbaycanda iqtisadi islahatların əsas mərhələləri) ilə tanış olmaq;
2) "Sahibkarlıq və innovasiyalar niyə iqtisadi inkişafın mühərrikidir?" sualına cavab tapmaq;
3) "Azərbaycanda biznes nə deməkdir? Ölkəmizdə öz biznesinə başlamaq nə deməkdir? Azərbaycanda uğur qazanmaq üçün işə yenicə başlayan biznesmen mütləq nəyi bilməli və bacarmalıdır?" suallarına cavab tapmaq;
4) İnstitusional inkişaf və institutların iqtisadi inkişaf üçün əhəmiyyəti və ideyaları ilə tanış olmaq. İqtisadiyyat sahəsində Nobel Mükafatı Laureatı Duqlas Nort da daxil olmaqla dünyanın aparıcı iqtisadçılarının bu barədə nə düşündüklərini öyrənmək;
5) Dünya maliyyə böhranlarının, xüsusilə 2008-ci il böhranının tarixi, səbəbləri haqqında məlumat almaq. Son böhranın səbəblərinin öyrənmək. Eləcə də siz biləcəksiniz ki, bu böhrandan çıxmaq üçün dünyanın aparıcı dövlətləri nə etmişlər;
6) Yaxşı idarəetmənin nə olduğunu və Yaxşı idarəetmənin əsas prinsipləri ilə tanış olmaq;
7) Ümumdünya Ticarət Təşkilatının prinsipləri ilə tanış olmaq. Bu təşkilata üzv olmağın Azərbaycan üçün nə üçün vacib olduğunu anlamaq;
8) "Demokratik idarəetmə prinsipləri iqtisadi inkişaf üçün vacibdirmi? Digər ölkələrin təcrübəsi necədir?" suallarına cavab tapmaq;
9) İnvestisiyaların iqtisadi inkişaf üçün əhəmiyyəti haqqında bilmək. Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar haqqında məlumat almaq;
10) İnhisarçılıqla mübarizənin niyə vacib olduğu haqqında bilmək. Ədalətli rəqabət şərtlərini necə təmin etmək olar?

Əgər Siz bütün bunları öyrənmək istəyirsinizsə, Bakı Təhsil və İnformasiya Mərkəzi, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (Azərbaycan) və Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin (ABŞ) təşkil etdiyi seminarlara yazılın.

Bu seminarlarda təlim kursunu bitirdikdən sonra siz Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin (ABŞ) nəzdindəki İnkişaf İnstitutunun Setifikatını alacaqsınız.

Seminarlara yazılmaq üçün Siz aşağıdakı ünvana ərizə və CV-nizi göndərməlisiniz:

bhaji-zada@beic.az (Bahar xanım Hacı-zadə). Ərizələr 15 noyabr, 2012-ci il tarixinə qədər qəbul edilir.

Seminar iştirakçılarının seçim meyarları:

1. Yaşı: 25-ə qədər;
2. Sosial statusu: tələbə, biznesmen, QHT işçisi, biznes strukturu işçisi, dövlət qulluqçusu;
3. Gənclər təşkilatlarında üzvlük: arzuolunandır, lakin mütləq deyil